TÜRKİYƏ

# Baş verən bu qanunsuzluq təkrar olunmamalıdır

***Son günlər Rusiya Federasiyasının müxtəlif şəhərlərində, xüsusilə Yekaterinburqda yaşayan Azərbaycan vətəndaşlarına qarşı təzyiqlər, hücumlar və insanlıqdan kənar rəftarlar cəmiyyətdə haqlı narahatlıqlar doğurub. Bu hadisələr təkcə fərdi insidentlər deyil, həm də etnik ayrı-seçkiliyin və sistemli basqının təzahürləri kimi qiymətləndirilməlidir. Bu cür hallar Rusiyada uzun müddətdir mövcud olan və artmaqda davam edən etnik diskriminasiya və rus şovinizmi dalğasının bir hissəsidir. Çox təəssüf olsun ki, azərbaycanlılar da daxil olmaqla Qafqaz və Mərkəzi Asiya xalqları tez-tez hüquq-mühafizə orqanlarının, mediada yayılan neqativ stereotiplərin və ictimai nifrətin hədəfinə çevrilirlər.***

"Rusiyanın Yekaterinburq şəhərində azərbaycanlılara qarşı törədilmiş amansız işgəncələr Türkiyədə də ciddi rezonans doğurub. Hüquq-mühafizə orqanlarının xüsusi vəhşiliklə həyata keçirdiyi quldur hücumunun yalnız bir adı var - kriminal qətliam. Bunun da məsuliyyəti birbaşa vətəndaş hüquqlarını qoruyacağına and içən şəxsin üzərinə düşür". Bu fikiri mövzu ilə bağlı açıqlamasında **Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının (TADEEF) baş katibinin müavini Serdar Ünsal** deyib. O qeyd edib ki, Yekaterinburq şəhərində hüquq-mühafizə orqanlarının hüquqazidd addımları hərtərəfli araşdırılmalı və etnik azərbaycanlıların ölümü və yaralanması ilə nəticələnən qanunsuz hərəkətlərdə iştirak edən bütün şəxslər məsuliyyətə cəlb olunmalıdır.

S.Ünsal Azərbaycanın diaspor nümayəndələrinə qarşı aparılan istintaq hərəkətlərinin sifariş xarakterli olduğunu istisna etməyib: "Hər hansı cinayətdə şübhəli bilinən şəxslər qanun qarşısında cavab verməli, hüquq-mühafizə orqanlarının qurbanına çevrilməməlidir. Rusiyanın müvafiq strukturlarının hərəkətləri, o cümlədən işgəncə tətbiq etmələri yolverilməzdir".

TADEEF-in sədr müavini Rusiyada türklərə və azərbaycanlılara qarşı düşmənçilik və nifrət hallarını xatırladıb, baş verənlərdə radikal ünsürlərin və erməni lobbi qruplarının da rolunun ola biləcəyini istisna etməyib. Onun sözlərinə görə, Rusiyada çoxsaylı Azərbaycan diasporu bu ölkənin digər vətəndaşları ilə eyni hüquqlara malikdir.

İnsan hüquqlarının müdafiəsi üzrə təşkilatlar Sverdlovsk vilayətində baş verən hadisənin araşdırılmasına ən fəal şəkildə qoşulmalıdır. Əgər qanunsuzluğu görməzdən gəlsək, bu cür faciələr təkrar olacaq və artacaq.



"Görünən odur ki, Ukraynada müharibənin, hərbi əməliyyatların uzanması Rusiyanı həm maddi, həm də canlı qüvvə sarıdan ciddi itkilərlə üz-üzə qoyub. Getdikcə daha çox Rusiya vətəndaşı müharibədə iştirak etməkdən boyun qaçırır, fərarilik baş alıb gedir. Kremlin təbliğat maşınının cəhdləri də nəticəsiz olur. Bu səbəbdən də üzünü miqrantlara tutur. Bu yaxınlarda Mərkəzi Asiyadan olan miqrantlara, xüsusən də özbəklərə qarşı törədilən vəhşilik də bunun bariz nümunəsidir. Müharibə aparmaq üçün insan resursu çatışmazlığı yaşayan Kremlin son illərdə miqrantlara yönələn siyasəti məhz bu boşluğu doldurmağa hesablanıb. Əfqan, tacik, özbək, azərbaycanlı və çeçen əsilli gənclər müxtəlif şantaj, təhdid və saxta cinayət ittihamları ilə müharibəyə cəlb olunurlar. Onlara qarşı narkotiklərlə şər atmaq, ailə üzvlərini təhdid etmək kimi metodlar tətbiq olunur. İmtina edənlərə qarşı isə zorakılıq və təzyiqlər göstərilir. Rusiya rəhbərliyi getdikcə daha aqressiv şəkildə imperialist və millətçi mahiyyətini ortaya qoyur. İyirmi birinci əsrdə beynəlxalq ictimaiyyət bu siyasətə ad da qoyub - "raşizm", yəni rus faşizmi. Bu ideologiyanın əsas sütunlarından biri isə türklərə, xüsusilə də azərbaycanlılara qarşı sistemli düşmənçilikdir.



TADEEF sədr müavini son olaraq qeyd edib ki, Yekaterinburqda baş verən hadisələr insanlığa qarşı cinayət kimi qiymətləndirilməli, bu cinayətlərə göstəriş verənlər beynəlxalq hüquq qarşısında məsuliyyətə cəlb olunmalıdır.

Milliyyətindən, dinindən və dilindən asılı olmayaraq hər bir insanın ləyaqətlə yaşamaq hüququ var. Rusiyada yaşayan azərbaycanlılara qarşı bu cür insanlıqdan kənar davranışlar beynəlxalq hüquq müstəvisində cavablandırılmalıdır.




**Esmira Yazkan ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**

Respublika .- 2025.- 2 iyul (№ 132).- S.7.